**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**İXTİSASLAR VƏ İXTİSASLAŞMALAR**

# BAKALAVR

## TEATR SƏNƏTİ FAKÜLTƏSİ

| | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.01.2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisas siyahıları üzrə ixtisaslar:** | İxtisasın kodu |
|---|---|---|
| 1 | **Aktyor sənəti** | 050311 |
| | Aktyor sənəti ixtisasının məqsəd və vəzifələrinə aktyor sənətinin incəliklərinə "K.S.Stanislavski sistemi" əsasında yiyələnməyi, dünyada mövcud olan "Meyerxold nəzəriyyəsini", yaranmış məktəblərin nəzəriyyəsini öyrənib, onların "Stanislavskisistemi"ndən fərqini, hansının daha məqsədyönlü və məntiqcə düzgün olması, təsviri incəsənətin janrları, növləri, cərəyanlar, subyektlə obyektin dialektik vəhdəti, əməklə istedadın əlaqəsi, öz hisslərini ifa etdiyi rolun xarakterinə uyğun olaraq düzgün tənzimlənməsi, aktyor texnikasından düzgün və yerində istifadə edilməsi, nitq aparatından professional istifadə qaydalarının öyrənilməsi daxildir. | |
| 2 | **Xoreoqrafiya sənəti** | 050308 |
| | Xoreoqrafiya sənəti ixtisasının məqsəd və vəzifələrinə baletmeyster sənəti anlayışını, onun incəliklərini, opera, balet, musiqili teatrların rəqs truppaları və kollektivlərinə rəhbərlik etməyi, balet və xoreoqrafiya dünyasının yeni istiqamət və inkişaf yolları, musiqi nəzəriyyəsi, musiqi materiallarının təhlili, hərəkətlərin düzgün ifası, xoreoqrafiya məktəblərinin istiqaməti, xoreoqrafiya pedaqogikası, klassik rəqsin tarixi və metodikası, nəzəriyyəsi, müxtəlif dünya xalqlarının tarixi, milli mənsubiyyəti, milli rəqslərin yaranması, həyat tərzlərinin rəqslərə təsiri, inkişafı, xarakterik cəhətləri, ifa tərzləri, musiqiləri, bir-biri ilə sintezi, əlaqələri daxildir. | |
| 3 | **Teatrşünaslıq** | 050313 |
| | Teatrşünaslıq ixtisasının məqsəd və vəzifələrinə teatrşünas və dövri mətbuat, teatrşünas və teatr, teatrşünas və tarix münasibətlərinin incəliklərinə bələd olmalı, teatr jurnalistikasının əsasları, redaktor vərdişləri, dünya xalqlarının teatr bilgisi, teatr düşüncəsi, əbədi növlər və janrlar, ədəbi məktəblər barəsində biliklər, dünya mədəniyyətinin mərhələləri, incəsənətin müxtəlif növlərinin yaranması, inkişafı və formalaşması xüsusiyyətlərinin fərqləndirilməsi, dünya və Azərbaycan mədəniyyətində tənqidi fikrin ənənələrinin öyrənilməsi daxildir. | |